**Azərbaycan Vətəndaş Cəmiyyətinin Birgə Bəyanatı**

**24 Dekabr 2013**

**Biz Azərbaycan vətəndaş Cəmiyyəti nümayəndələri Bakı Apelyasiya məhkəməsinin dekabrın 23-də çıxarılmış qərarına əsasən hüquq müdafiəçisi, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) direktoru Anar Məmmədlini həbsdə saxlamasına görə Azərbaycan hakimiyyətini qınayır, Məmmədlini dərhal azad etməyə çağırırıq.**

**Əminliklə bəyan edirik ki, Anar Məmmədli Azərbaycan hakimiyyətinin bu ilki seçki saxtakarlıqlarını ifşa etdiyi üçün hakimiyyətin qəzəbinə gələrək həbsə atılıb. Açıq-aşkar peşə fəaliyyətinə görə avtoritar rejim tərəfindən həbsə atılan Anar Məmmədlini vicdan məhbusu hesab edərək onunla həmrəy olduğumuzu bildiririk.**

Anar Məmmədlinin həbsini-avtoritar Azərbaycan hakimiyyətinin vətəndaş cəmiyyətinə qarşı başlatdığı iri miqyaslı qisas kampaniyasının tərkib hissəsi kimi dəyərləndiririk.

2013-cü ilin oktyabr ayında prezident seçkilərində xarici donorlar hesabına həyata keçirdiyi seçki monitorinqi layihələrinə görə Anar Məmmədliyə qarşı qanunsuz sahibkarlıq , vergidən yayınma və **vəzifə səlahiyyətlərindən sui-istifadə** ittihamları ilə cinayət təqibinə başlanılıb.

**Dekabrın 16-da Nəsimi Rayon Məhkəməsinin hakimi Rəşid Səmədov Azərbaycan iqtidarının siyasi sifarişini yerinə yetirərək Anar Məmmədli barəsində 3 aylıq həbs qətimkan tədbiri seçib. Bu siyasi sifarişi yerinə yetirməyi davam edən Bakı Apelyasiya Məhkəməsinin hakimi Mirpaşa Hüseynov dekabrın 23-də Nəsimi Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb.**

Anar Məmmədli ilə yanaşı istintaq orqanları Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) icraçı direktoru olan Bəşir Süleymanlı və eləcə də, SMDT ilə son layihədə partnyor təşkilatı olan Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai birliyinin sədri Elnur Məmmədovu eyni cinayət işi üzrə təqsirləndirilən şəxs qismində tanıyıb və barələrində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçiblər.

Hakimiyyət vətəndaş cəmiyyətinin ayrı-ayrı fəallarına qarşı repressiv addımlarına kifayətlənməyərək dekabrın 17-də QHT fəaliyyətini məhdudlaşdıran daha mürtəce dəyişiklikləri Milli Məclisdə qəbul edib. Son 5 ildə QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyə çoxsaylı mürtəce dəyişikliklər əlavə etməklə, Azərbaycan hökuməti yerli vətəndaş cəmiyyətinin fəaliyyətinə çoxsaylı bürokratik problemlər yaradaraq onların fəaliyyətini zəiflətməyə çalışıb. Bu gün Azərbaycanda yerli vətəndaş cəmiyyəti qurumları ilə yanaşı beynəlxalq QHT-lərin Azərbaycandakı bölmələri də hakimiyyətin

hədəfinə çevrilib. Belə ki, İnsan Haqları Evi, Milli Demokratiya İnstitutunun fəaliyyəti iflic halına salınıb, digər bir neçəsində yoxlamalar başlamışdır.

**Bu gün Azərbaycanda prezident seçkilərindən sonra baş verən repressiyalar oxşarlıqla 2011-ci il Belarusiyada və 2012-ci il Rusiyada seçki sonrası repressiyaları xatırladır. Azərbaycanda bu gün baş verən Anar Məmmədlinin həbsi Belarusiyadakı həmkarı tanınmış hüquq müdafiəçisi Ales Bialiatskinin həbsini, QHT-lərin fəaliyyətinin məhdudlaşdırılmasına yönələn qanun dəyişiklikləri isə oxşarlıqla Rusiyada QHT-lərə qarşı yönələn mürtəce dəyişiklikləri xatırladır.**

Bu gün Azərbaycanda baş verən repressiyaların bir hədəfi var – ölkədə baş verən qanunsuzluqlar , saxtakarlıqlar və korrupsiya haqqında danışanları susdurmaq. Dünya və ölkə mediasında dərc olunan araşdırmalar sübut edir ki, Azərbaycan iqtisadiyyatı ən yüksək çinli məmurların və onların ailə üzvlərinin inhisarına verilib, büdcə vəsaitləri bir qrup oliqarxın ciblərinə axıdılır. Beynəlxalq antikorrupsiya təşkilatları və jurnalistlər Azərbaycanın milli sərvətlərinin işlədilməsində və mədən sənayesində də böyük gəlirli kontraktların ölkə rəhbərliyində olan şəxslərin yaxın qohumlarına verildiyini üzə çıxarıb.

Eyni zamanda sübut olunub ki, son 10 ildə müxtəlif kölgəli sxemlərlə Azərbaycandan ofşor zonalara milyardlarla dollar vəsait çıxarılıb. Yerli və beynəlxalq jurnalistlərin araşdırmaları göstərir ki, yüksək çinli məmurların ailə üzvləri ofşor zonalarda təsis etdikləri şirkətlər vasitəsi ilə sonradan Azərbaycanda iqtisadiyyatın ən gəlirli sənaye müəssisələrini alaraq qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Lakin hakimiyyət bu müəssisələrin qanunsuz fəaliyyətinə və dövlət büdcəsindən vergi yayındırmalarına göz yumur.

Məhz bu araşdırmalar və hesabatlar, eləcə də prezident seçkilərinin nəticələrini kölgə altına alan beynəlxalq və yerli təşkilatların rəyləri Azərbaycan iqtidarını qıcıqlandıraraq vətəndaş cəmiyyətinə qarşı aqressiyasına səbəb olmuşdur.
Anar Məmmədlinin həbsi Azərbaycan iqtisadiyyatı üçün önəmli olan Şahdəniz-2 investisiya sazişinin imzalanma mərasimindən bir gün öncə baş verib. İmzalanma günündə isə QHT fəaliyyətini məhdudlaşdıran qanun dəyişiklərin qəbuluna start verilib.

Hesab edirik ki, bununla da Azərbaycan hakimiyyəti Qərbə mesaj verir ki, biz enerji sahəsində Avropa Birliyi ilə yeni strateji müqavilə imzalayırıq, amma Avropa İnsan haqları dəyərləri Azərbaycan iqtidarına lazım deyil.

Məhz buna görə prezident seçkilərindən əvvəl hakimiyyət çoxsaylı sifarişli həbsləri həyata keçirərək, onlarla günahsız adamları həbsə atdı. Həbs olunanların arasında tanınmış jurnalistlər, bloggerlər, hüquq müdafiəçiləri, vəkillər, gənc fəallar, müxalifət partiyalarının üzvləri var. Çoxsaylı siyasi məhbusların içərisində Respublikaçı Alternativ Hərəkatının sədri İlqar Məmmədov, jurnalist Əvəz Zeynallı və Tofiq

Yaqublu, hüquq müdafiəçiləri və jurnalistlər Hilal Məmmədov və Pərviz Həşimli, gənc fəal NİDA-çılar və digər tanınmış ictimai-siyasi xadimlər var.

Hakimiyyət təkcə opponentlərini həbsə atmaqla kifayətlənməyib, ölkədə informasiya azadlığının şəffaflığını tənzimləyən qanunvericiliyə son illərdə çoxsaylı repressiv dəyişikliklər edərək yüksək çinli məmurların nəzarətində olan iri biznes imperiyaların əldə etdikləri çirkli pulların yuyulması və korrupsiyanın çiçəklənməsi üçün münbit şərait yaradıb.

İllərdir ki, qanunlar tələb etsə də, heç bir məmur, nə də onların ailə üzvləri dövlət qurumlarına və ictimaiyyətə maliyyə bəyannamələrini təqdim etmirlər. İş o həddə çatıb ki, 3-cü müddət üçün seçkilərdə iştirak edən namizəd və indiki prezident İlham Əliyevin Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi gəlir bəyannaməsi Azərbaycan xalqından nümayişkaranə şəkildə gizli saxlanılıb.

Özlərinə rüşvət və korrupsiya üçün münbit şərait yaradan Azərbaycan yüksək çinli məmurları eyni zamanda ölkədə qanun aliliyini tapdalayaraq vətəndaşların mülkiyyət hüquqlarını pozurlar.

Azərbaycan Konstitusiyasında və Avropa insan Haqları Konvensiyasında əks olunmuş 3 fundamental prinsip - ifadə, sərbəst toplaşmaq və birləşmək azadlığı faktiki olaraq məhv olmaq ərəfəsindədir.

Son illərdə peşə fəaliyyətinə görə jurnalist Elmar Hüseynov və Rafiq Tağı qətlə yetirilib, digər jurnalist Novruzəli Məmmədov lazımi tibbi yardım almadığı üçün həbsxanada dünyasını dəyişib, bir neçə jurnalistə qarşı baş tutmamış sui-qəsdlər həyata keçirilib. Son yeddi il ərzində demək olar ki, hər rüb Azərbaycanda ya yeni bir jurnalist, ya bloqqer, ya da hüquq müdafiəçisi həbs olunub. Tanınmış tənqidçi və araşdırmaçı jurnalistlərin şəxsi ailə həyatına aid xüsusi xidmət orqanları tərəfindən şantaj məqsədi ilə qanunsuz və gizli videolar çəkilib və internetdə yayılıb. Ölkədə bütün müstəqil yerli və xarici teleradio şirkətlərin yayımı dayandırılaraq, faktiki olaraq teleradio məkanı tam şəkildə iqtidarın maraqlarına xidmət etməyə məcbur edilib.

Birləşmək azadlığı sahəsindəki durum da son illərdə daha da ağırlaşıb. Belə ki, hakimiyyət müstəqil fikirli insanlar tərəfindən yaradılan QHT-ləri qeydiyyatdan keçirməkdən imtina edir, bu gün qeydiyyatından imtina edilən yüzdən artıq QHT vardır ki, onlardan biri də Anar Məmmədlinin rəhbərlik etdiyi SMDT Mərkəzidir.

Sərbəst toplaşmaq azadlığı sahəsindəki durum da son 10 il ərzində demək olar ki, hər il pisləşməyə doğru getmişdir.
BMT, Avropa Şurası, ATƏT üzvü olan Azərbaycanda bu gün faktiki insan haqları sahəsindəki beynəlxalq öhdəliklərə əməl olunmur. Azərbaycan hakimiyyəti

Konstitusiyada əks olunan və Azərbaycanın İnsan haqları sahəsində ratifikasiya etdiyi beynəlxalq sənədləri kobudcasına pozur.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkilərlə bağlı tənqidi rəyinə Azərbaycan hakimiyyətinin reaksiyası, eləcə də səsvermə günündən əvvəl və sonra seçki monitorinqi sahəsində fəaliyyət göstərən QHT-lərə basqıları və bu sahədə ölkənin aparıcı QHT-sinin rəhbərinin həbsi bir daha göstərir ki, seçkilər hakimiyyətin ciddi dözümsüzlüyü şəraitində keçib.

Biz yerli vətəndaş Cəmiyyəti qurumları Azərbaycan hökumətinə üz tutub həbs olunmuş bütün siyasi məhbusları o cümlədən Anar Məmmədlini dərhal azad etməyə çağırırıq.

Eyni zamanda biz Azərbaycan hökumətini fundamental azadlıqları tənzimləyən qanunvericiliyi Avropa Şurası standartlarına uyğunlaşdırmağa və bu azadlıqların reallaşdırılması üçün işlək mexanizmlərin tətbiqinə çağırırıq. Biz həmçinin Azərbaycan hakimiyyətini BMT Korrupsiya ilə Mübarizə Konvensiyasına, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü və Açıq Hökumət Təşəbbüsündən irəli gələn şəffaflıq və korrupsiya ilə mübarizə sahəsindəki öhdəlikləri yerinə yetirməyə çağırırıq.

Gələn ilin may ayından oktyabra kimi, yəni 6 ay ərzində Azərbaycan Avropada insan haqlarının qarantlarından biri olan Avropa Şurası Nazirlər Kabinetinə sədrlik etməyə hazırlaşır. Biz hesab edirik ki, bu cür nüfuzlu beynəlxalq qurumda sədrliyə hazırlaşdığı bu dövr Azərbaycan insan haqlarına hörmət nümayiş etdirməlidir.

Bu baxımdan biz Avropa Şurası Nazirlər Kabinetinə, Avropa Şurası Parlament Assambleyasının Baş katibinə, Avropa Şurasının İnsan haqları üzrə komissarına, Avropa Şurası Parlament Assambleyasının üzvlərinə və Avropa Şurasının digər aidiyyəti qurumlarına müraciət edərək Azərbaycanda insan haqları sahəsində yaranmış dözülməz şəraitə münasibət bildirməyə çağırırıq. Biz Avropa Şurasının bütün maraqlı tərəflərini Azərbaycan hakimiyyətinə çağırış etməyə və insan haqları sahəsində öhdəliklər yerinə yetirilməzsə zəruri sanksiyalar tətbiq etməyə çağırırıq.

Biz eyni zamanda Avropa Şurasının Parlament Assambleyasını yanvar sessiyası zamanı Azərbaycan nümayəndə heyəti təsdiq olunmamışdan qabaq, Azərbaycan hökumətindən insan haqlarına qarşı başlamış repressiyaları dayandırmağı və bu repressiyaların qurbanlarını azad etməyi tələb etməyə çağırırıq.

**Anar Məmmədlinin həbsinə, vətəndaş cəmiyyətinə və insan haqlarına qarşı yönələn qanun dəyişiklikləri ilə bağlı artıq ATƏT Parlament Assambleyasının liderləri, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəhbərliyi , Avropa Komissiyası, Avropa Parlamentinin və AŞPA deputatları, ABŞ və Kanada**

**hökumətlərinin və bir sıra digər nüfuzlu beynəlxalq qurumları son günlərdə narahatçılığını bildirib.**

**Bir çox beynəlxalq hüquq müdafiə təşkilatları Anar Məmmədlinin həbsini siyasi repressiya kimi dəyərləndirib, o cümlədən Amnesty İnternational təşkilatı Məmmədlinin vicdan məhbusu olduğunu bəyan edib.**

**Bütün bu beynəlxalq qınaqların əksinə Azərbaycan iqtidarı öz repressiyalarına haqq qazandıraraq Azərbaycan Respublikasının Baş Prokurorluğu adından bəyanatla çıxış edərək Məmmədlinin işi ilə bağlı ifadə olunan narahatçılıqları Azərbaycanın müstəqil məhkəmə hakimiyyətinə və məhkəmə sisteminə basqı kimi qiymətləndirib**

**Biz Azərbaycan vətəndaş cəmiyyətinin üzvləri beynəlxalq qurumların Azərbaycanda insan haqları ilə əlaqədar son narahatçılıqlarını bölüşərək Azərbaycan iqtidarına xatırladırıq ki, insan haqları sahəsindəki durum heç bir dövlətin daxili işi ola bilməz.**

**Bu baxımdan biz bir daha beynəlxalq ictimaiyyətə müraciət edərək, Azərbaycanda günü-gündən ağırlaşan insan haqları durumunun yaxşılaşdırılmasına yönələ biləcək bütün zəruri addımları atmağa çağırırıq.**

**Anar Məmmədli ilə bağlı bəyanatı təsdiq edənlərin siyahısı**

**Hüquq müdafiəçiləri**

1. Akif Qurbanov, Demokratik Təşəbbüslər İnstitutu
2. Ələkbər Məmmədov, hüquq müdafiəçisi
3. Əlövsət Əliyev, Azərbaycan Miqrasiya Mərkəzi,
4. Əlövsət Sadıqlı, "Təhsil Tədqiqatları Mərkəzi"
5. Ənnağı Hacıbəyli, Azərbaycan Hüquqşünaslar Assosiasiyası
6. Arzu Abdullayeva, Helsinki Vətəndaş Assambleyasının Azərbaycan Nümayəndəliyi
7. Ərəstun Oruclu, Şərq-Qərb Araşdırmalar Mərkəzi
8. Arif Əliyev, "Yeni Nəsil" Jurnalistlər Birliyi
9. Əsabəli Mustafayev, Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi
10. Aytəkin İmranova, İslam Demokratiya və İnsan Hüquqları Mərkəzi
11. Azər Mehtiyev, "İqtisadi Təşəbbüslərə Yardım" İB
12. Əvəz Həsənov, Humanitar Tədqiqatlar Cəmiyyəti
13. Bəşir Süleymanlı, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi
14. Dilarə Əfəndiyeva, hüquq müdafiəçisi
15. Elçin Abdullayev, "Demokratik Təsisatlar və İnsan Hüquqları" İB

16. Elçin Namazov, "Hüquq və Azadlıqların Müdafiəsi İnstitutu" İB
17. Eldəniz Yusibov, Azərbaycanlı Siyasi Mühacirlərin Dünya İttifaqı, Hollandiya
18. Emin Hüseynov, "Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu" İB
19. Emin Aslan, Media Hüququ İnstitutu
20. Elnur Məmmədov, Könüllülərin Beynəlxalq Əməkdaşlığı İB
21. Elşən Həsənov, "Siyasi Məhbuslarsız Azərbaycan"
22. Elşən Nağıyev, "Vətəndaş Təşəbbüs və Qanunların Təkmilləşdirilməsinə Yardım Mərkəzi"
23. Fuad Həsənov, "Demokratiya Monitoru" İB
24. Gülnarə Axundova, hüquq müdafiəçisi
25. Günay Hüseyn, "Demokratiya və Qanun Təşəbbüsləri" İB
26. Hafiz Həsənov, "Hüquq və İnkişaf" İB
27. Həsən Hüseynli "Kamil Vətəndaş" maarifləndirmə mərkəzi
28. İlqar Qasımov, "Hüquqi yardım" İB
29. İradə Cavadova, İnsan Hüquqları üzrə Maarifləndirmə İB
30. İlham Hüseynli, "Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq" İB
31. İntiqam Əliyev, "Hüquq Maarifçiliyi Cəmiyyəti" İB
32. Xalid Kazımov, "Regional İnsan Hüquqları və Media Mərkəzi" İB
33. Xalid Ağaliyev, Media Hüququ İnstitutu
34. Lazım Umudov, "Aran Regional İnsan Haqları" İB
35. Leyla Yunus, "Sülh və Demokratiya İnstitutu" İB
36. Leyla Əliyeva, "Milli və beynəlxalq Araşdırmalar Mərkəzi" İB
37. Lətafət Məlikova, Regional İnsan Haqları və Maarifləndirmə İB
38. Məhərrəm Göyüşov, "Qazax Regional inkişaf resursları mərkəzi"
39. Mətanət Əzizova, "Qadın Krisis Mərkəzi" İB
40. Mehriban Zeynalova, "Təmiz Dünya" İB
41. Məhəmməd Talıblı, "İqtisadi İnnovasiya Mərkəzi"
42. Mətanət Müslümqızı, "Media Hüquqları Mərkəzi"
43. Məlahət Nəsibova, Demokratiyaya Dəstək və İnsan Hüquqları Resurs Mərkəzi
44. Mübariz Tağıyev, "Mədən Sənayesində İnsan Haqları" İB
45. Mirvari Qəhrəmanlı, "Neftçilərin Hüquqlarının Müdafiəsi Mərkəzi" İB
46. Mirəli Hüseynov, "Demokratiyanı Öyrənmə" İB
47. Novella Cəfərova, Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Komitəsi
48. Nəsrulla Nurullayev, "Ahıl Ziyalılara Qayğı Cəmiyyəti" İB
49. Nəsrəddin Kərəmov, "Aran" Ekoloji Maarifləndirmə İB
50. Nicat İmran, Gənclərin Həmrəylik Hərəkatı
51. Oqtay Gülalıyev, "Demokratik İslahatlar Uğrunda Cəmiyyət" İB
52. Rafiq Təhməzov, "Bərabər İmkanlar Mərkəzi" İB
53. Rəşid Hacılı, " Media Hüquqları İnstitutu" İB
54. Rəsul Cəfərov, "İnsan Hüquqları Klubu" İB
55. Rühəngiz Hüseynova, "Qadın Həmrəyliyi" İB
56. Səadət Bənəyarlı, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi
57. Səidə Qocamanlı, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi Bürosu

58. Sevil Yüzbaşova, “Eko Aləm” İB
59. Sevil Allahverdiyeva, “Qadın Problemlərinin Araşdırma” Mərkəzi
60. Solmaz Mehdiyeva, "Quba-Xaçmaz bölgəsi üzrə İnsan hüquqları" Resurs Mərkəzi
61. Şahin Hacıyev, Nəcəf Nəcəfov Fondu,
62. Şaban Nəsirov, “İnsan Hüquqları- 2003” İB
63. Şəhla İsmayıl, Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti
64. Şükür İzzətli, “Regional İnsan Hüquqları və Araşdırmalar Mərkəzi”
65. Vidadi İsgəndərli, hüquq müdafiəçisi
66. Ziya Quliyev, “Hüquq Təşəbbüsləri” İB
67. Zöhrab İsmayıl, Azad İqtisadiyyata Yardım İB

**Hüquqşünas/vəkillər**

68. Ələsgər Məmmədli, müstəqil hüquqşünas
69. Aslan İsmayılov, hüquqşünas
70. Asimə Nəsirli, hüquqşünas
71. Elçin Sadıqov, vəkil
72. Eldəniz Vahidbəyli, hüquqşünas
73. Fariz Namazlı, vəkil
74. Günay İsmayılova, hüquqşünas
75. Xalid Bağırov, vəkil
76. Xalisə Şahverdi, hüquqşünas
77. Leyla Mədətli, hüquqşünas
78. Müzəffər Baxışov, vəkil
79. Namizəd Səfərov, hüquqşünas
80. Nemət Kərimli, vəkil
81. Rövşanə Rəhimova, hüquqşünas
82. Sadiqə Mehdizadə, hüquqşünas
83. Yalçın İmanov, vəkil
84. Yaşar Ağazadə, hüquqşünas
85. Zibeydə Sadıqova, vəkil

**Jurnalistlər/media**

86. Aynur İmranova, müstəqil jurnalist
87. Aytən Məmmədova, jurnalist
88. Elçin Məmməd, Yüksəliş Naminə qəzetinin baş redaktoru,
89. Elnur Astanbəyli, jurnalist
90. Emin Milli, Meydan TV
91. Qənimət Zahid, “Azadlıq qəzetinin baş redaktoru
92. İdrak Abbasov, jurnalist
93. Cahangir Yusif, foto jurnalist

94. Kamran Mahmudov, jurnalist
95. Kamilə Məhərrəmli, jurnalist
96. Xədicə İsmayıl, jurnalist
97. Məhəmməd Türkmən, jurnalist
98. Mehman Əliyev, Turan İnformasiya Agentliyi
99. Mehman Hüseynov, foto və video reportyor
100. Nicat Kamal, jurnalist
101. Rahim Hacıyev, "Azadlıq" qəzetinin baş redaktorunun birinci müavini
102. Rövşən Hacıyev, jurnalist
103. Samir Kazımlı, jurnalist
104. Şahvələd Çobanoğlu, jurnalist
105. Təhminə Tağızadə, Meydan TV Bakı koordinatoru
106. Tural Mustafayev, müstəqil reportyor
107. Türkan Hüseynova, mikroblogger
108. Ülviyyə Əsədzadə, jurnalist
109. Zahir Əmənov, "Cənub xəbərləri" baş redaktor
110. Zamin Hacı, jurnalist

**Siyasətçilər/aktivistlər**

111. Əli Kərimli, Azərbaycan Xalq Cəbhəsi Partiyası
112. Altay Göyüşov
113. Arif Yunusov, konfliktoloq
114. Azər İsmayıl, Müsavat Partiyası Sabirabad r-n təşkilatı
115. Azər Qasımlı, politoloq
116. Bəxtiyar Hacıyev, gənc fəal
117. Bəybala Əbil, KXCP Məclis sədri, Milli Şura üzvü
118. Əhəd Məmmədli
119. Elçin Həsənov
120. Eldar Namazov, El Hərəkatı sədri
121. Erkin Qədirli, Respublikaçı Alternativ (ReAl), İdarə Heyətinin üzvü
122. Gültəkin Hacıbəyli, Demokratik Qüvvələrin Milli Şurasının Beynəlxalq Əlaqələr Komissiyası
123. Hikmət Hacızadə, siyasi ekspert
124. İsa Qəmbər, Müsavat Partiyasının başqanı
125. Cəmil Həsənli, Milli Şuranın sədri,
126. Cavid Hacıbəyli, Müsavat Partiyası
127. Kənan Qasımlı - N!DA Vətəndaş Hərəkatı üzvü
128. Xəzər Teyyublu, "Teleqraf.az"saytının təsisçisi, Milli Şura üzvü
129. Mehriban Vəzir,
130. Mirmahmud Mirəlioğlu, Klassik Xalq Cəbhəsi Partiyası sədri
131. Nərgiz Yaqublu, Müsavat Gənclər Təşkilatının sədr müavini
132. Nərmin Rəhimli, fəal
133. Natiq Ədilov, Azərbaycan Xalq Cəbhəsi

134. Natiq Cəfərli, REAL Hərəkatının İcra Katibi
135. Pünhan İmamlı,VHP Gənclər Təşkilatının sədri
136. Rəşad Şirin, Siyasi analitik
137. Samir Əsədli, Vətəndaş Həmrəyli partiyasının mərkəzi Aparatı
138. Sülhəddin Əkbər, Açıq Cəmiyyət Partiyasının sədri
139. Tural Abbaslı, Musavat Partiyasi Divan üzvü
140. Tural Hüseynli
141. Turqut Qəmbər, N!DA İdarə Heyəti üzvü
142. Ülvi Həsənli, N!DA İdarə Heyəti üzvü
143. Vidadi Mirkamal, Milli Şuranın Hüquq Komissiyasının sədri
144. Yeganə Hacıbəkova, Milli Şura üzvü

**Digər İctimai fiqurlar**

145. Aytəkin Hüseynli
146. Bahar Hacızadə
147. Elmir Mirzəyev
148. Günay Qasımova,
149. Günay İsmayılova
150. Günay Rzayeva
151. Gülçin Seyidova
152. İslam Sərvəroğlu
153. Cahangir Əlibəyzadə
154. Məmməd Məmmədzadə
155. Murad Həsənli
156. Nazlı Ağayeva
157. Nailə Əliyeva
158. Nigar Fətəli
159. Rasim Qaraca
160. Rövşən Ağayev
161. Sadiq Fətəliyev
162. Samirə Əhmədbəyli
163. Sevda Səfərəliyeva
164. Şəhla Sultanova
165. Şəhla Əliquliyeva
166. Tatyana Kryuçkina
167. Vəfa Sübhani